# Çanaqqala döyüşü:

# Türkün Zəfər rəmzi

**Birinci Dünya müharibəsi illərində bir çox dövlətlər Osmanlı imperiyasının torpaqlarını bölüşdürmək, onun siyasi varlığına son qoymaq niyyətində idilər. Böyük Britaniya, Fransa və Rusiyadan ibarət üçlük (Antanta) Almaniya ilə Osmanlı dövlətini ayırmaq, Türkiyənin Qara dənizdəki mövqeyini sarsıtmaq, müttəfiqlərdən birini zəiflətmək məqsədilə Çanaqqala boğazını keçib İstanbulu və cənubundakı strateji əraziləri tutmağı planlaşdırırdılar.**

Strateji mövqedə yerləşən Çanaqqala boğazının işğalı böyük üstünlük qazandıracaqdı. Çünki Çanaqqalının ələ keçirilməsi İstanbulun işğalı demək idi. Bu məqsədlə Antanta dövlətləri 1915-ci ilin fevralında həm quru, həm də dəniz yolu ilə boğaza hücuma keçdilər. Çanaqqala döyüşlərinin ilk mərhələsi martın 18-də dəniz hücumları ilə başladı. Qüvvələr nisbətinin qeyri-bərabər olmasına, güclü ordu ilə üz-üzə gəlməsinə baxmayaraq, türk əsgərinin rəşadəti, hünəri qarşısında fransız və ingilis qoşunlarının hücumları müvəffəqiyyətsiz oldu. Yeni silah və texnika ilə təchiz edilmiş düşmən donanması 7 döyüş gəmisini və minlərlə əsgərini itirərək geri çəkilmək məcburiyyətində qaldı. Osmanlı ordusunun keçilməz müdafiə xətti, öz varlığını və istiqlaliyyətini qoruyan türk xalqının sərt müqaviməti, sarsılmaz iradəsi ittifaq dövlətlərinin planlarını alt-üst etdi.

**(davamı 9-cu səhifədə)**

(əvvəli 1-ci səhifədə)

Dənizdə böyük məğlubiyyətə uğrayan Britaniya, Avstraliya, Yeni Zelandiya və Fransa qoşunları aprelin 25-də Birinci Dünya müharibəsinin ən mühüm cəbhələrindən biri olan Gelibolu yarımadasına enəndən sonra boğazın hər tərəfində qızğın döyüşlər başladı. Anadolu ərazisini türklərdən təmizləmək niyyətində olan ittifaq ölkələri Seddülbahir və Arıburnu cəbhələrindən hücuma keçdilər. Lakin boğazda olduğu kimi, quruda da əzmkarlıqla, rəşadətlə öz torpağının müdafiəsinə qalxan türk əsgəri düşmənləri geri oturtdu. Xüsusilə Mustafa Kamal Atatürkün rəhbərliyi altında olan 19-cu piyada diviziyası çətin təbii şəraitdə - - dağlarda, qayalıq ərazilərdə mərdliklə vuruşaraq böyük şücaət göstərdi. Döyüşün şiddətləndiyi bir zamanda Mustafa Kamal mühüm mövqelərə əlavə qüvvələr göndərməklə ingilis və fransız qoşunlarının irəliləməsinə imkan vermirdi. O, əsgərlərini milləti, xalqı yolunda ölümə belə hazır olmağı səsləyərək deyirdi: "Mən sizə döyüşmək, hücum əmri vermirəm! Mən sizə ölməyi əmr edirəm! Biz ölənə qədər keçəcək zaman ərzində yerimizə başqa qüvvələr gələ bilər". Bəli, qəhrəman türk oğlu vətən uğrunda ölməyi göz önünə almışdı. Odur ki, başdan-başa silahlanmış düşmən ordusunun qarşısında mətanətlə dayanır, əzmlə, qətiyyətlə türk millətinin yenilməzliyini nümayiş etdirirdi. Təsadüfi deyil ki, vaxtilə İngiltərənin baş naziri olmuş Uinston Çörçill demişdir ki, "türklər Çanaqqalada ən müasir texnika ilə silahlanmış müttəfiq güclərin qarşısında qala kimi dayanmışdılar". İngilis generalı Oqlander isə türk əsgərinin döyüşkənliyinin nəzərə alınmamasının ingilislər üçün fəlakətlə nəticələndiyini söyləmişdir.

8 ay davam edən Çanaqqala döyüşlərində 250 mindən çox türk əsgəri Vətən uğrunda canını fəda etdi, amma düşmənin boğazı keçməsinə imkan vermədi. Güclü döyüş texnikası ilə təchiz olunmuş, Osmanlı ordusundan dəfələrlə üstün vəziyyətdə olan Antanta qoşunları vətən sevgisi ilə silahlanmış türk əsgərinin qarşısında dayana bilmədilər. Yox olmaq təhlükəsi ilə üz-üzə qalan Türkiyə özündə elə bir güc tapdı ki, bu gücün qarşısında nəinki Avropanın bir neçə ölkəsi, dünyanın yarısı belə duruş gətirə bilməzdi. Türk əsgərinin misli görünməmiş qəhrəmanlığı, vətənpərvərliyi Çanaqqala savaşında bütün türk dünyasının zəfər tarixini yazdı. İstanbul üzərindən Osmanlı imperiyasına nəzarət etmək istəyən İttifaq qüvvələri - günlərlə bir addım belə irəliləyə bilməyən ingilislər 216014 və fransızlar isə - 47745 əsgərini itirdi, eyni zamanda Rusiyaya təchizat göndərmək planları uğursuz oldu. Bu səbəbdən Rusiya Birinci Dünya müharibəsində böyük çətinliklə üzləşdi. İttifaq dövlətlərinin Orta Şərqdə və Balkanlardakı hərbi planları pozuldu, yeni cəbhələrin açılması digər müttəfiqləri çıxılmaz vəziyyətə saldı.

Müttəfiq dövlətlərin 1915-ci il mart ayının 18-də dənizdən başlatdıqları hücum uğursuzluqla nəticələndi, Gelibolu yarımadasındakı quru desantları da Osmanlı ordusu tərəfindən məhv edildi. Türk əsgəri yüksək əzmi və döyüş qabiliyyəti, ən əsası isə vətənpərvərliyi, yurda bağlılığı ilə Antanta qüvvələrini məğlub edərək imperiyanın dağılmasını gecikdirdi, müstəqillik uğrunda mübarizə aparan Türkiyənin gələcəyini təmin etdi. Çanaqqala zəfəri Osmanlı imperiyasının müdafiəsini möhkəmləndirməklə yanaşı, Mustafa Kamalın gələcəkdə Türkiyə Cümhuriyyətini qurmasında mühüm rol oynadı. Böyük Britaniya və Fransa isə bu döyüşdən sonra Rusiya ilə əlaqələrini yaxşılaşdırmaq və Osmanlıya qarşı çıxmaq üçün yeni strategiyalar, döyüş əməliyyatları hazırladılar.

Eyni kökə, milli birliyə əsaslanan türk birliyi tarixin bütün dövrlərində özünü göstərib. Qəhrəmanlıq dastanına çevrilmiş Çanaqqala döyüşlərində azərbaycanlıların könüllü iştirakı doğma qardaşlıq, əsl dostluq, dar gündə bir-birinə arxa dayaq olan türk millətinin birliyinin, həmrəyliyinin ən bariz nümunəsidir. Döyüşlərdə minlərlə azərbaycanlı türk qardaşları ilə çiyin-çiyinə vuruşaraq bir xalqın, bir millətin övladı olduğunu, dərd-sərimizin, sevincimizin bir mənbədən qaynaqlandığını isbat etdi. Tarix boyu türkə düşmən olan, onun birliyindən qorxan Qərb dövlətləri bu millətin övladlarının vətən uğrunda gözünü belə qırpmadan ölümə meydan oxuduqlarının şahidi oldular. 3 mindən çox azərbaycanlının şəhidlik zirvəsinə ucaldığı Çanaqqala döyüşləri xalqımızın müstəqilliyə gedən yolunu aydınlatdı. Müstəqil dövlətçiliyimizin, 1918-ci ildə Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına zəmin oldu. Çanaqqala döyüşü Osmanlı imperiyasının müdafiəsi, türk-islam dünyasının birliyi və Azərbaycanın müstəqillik uğrunda mübarizəsinin başlanğıcı idi. Türk millətinin qəhrəmanlığı, mətanəti, vətənpərvərliyi ilə tarixə yazılan Çanaqqala döyüşü həm Azərbaycanın, həm də Türkiyənin gələcəyi üçün mühüm bir mərhələ oldu. Çanaqqala zəfərinin 100 illiyi münasibətilə təşkil olunan təntənəli mərasimdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan demişdir: "Çanaqqalada yaşanan savaş türklərin və bu müharibədə iştirak edən millətlərin taleyini müəyyən etdi. Bizim üçün Çanaqqala zəfər rəmzidir...".

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

Respublika .- 2025.- 18 mart (№ 59).- S.1;9.